# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Antik dövr fəlsəfəsində məntiq elminin formalaşmasının fəlsəfi əsasları

**Pərvinə Nadir qızı Yusifova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*AMEA-nın Fəlsəfə İnstitutu*
**E-mail:** parvina.yusifova@gmail.com

**Rəyçilər:** f.ü.e.d., prof. Ə.M. Tağıyev,
f.ü.f.d., dos. F.H. Nəbiyev

**Açar sözlər:** fəlsəfə, elm, məntiq, tədqiqat, mərhələ, alim, vasitə, inkişaf, dünya
**Ключевые слова:** философия, наука, логика, исследования, период, ученый, инструмен, развитие, мир
**Key words:** philosophy, science, logic, research, stage, tool, work, development, the world

Müasir dövrdə elm və texnika çox sürətli inkişaf mərhələsindən keçməkdədir. Bu inkişaf başlıca olaraq gerçəkliyin elmi-məntiqi dərki, bir sıra fundamental elm sahələrinin – riyaziyyat, fizika, informatikanın inkişafı, həmçinin, xüsusi elm sahələrinin meydana gəlməsi ilə xarakterizə olunur. Xüsusi elmlərin bir çox metodları digər bilik sahələrinə inteqrasiya edərək ümumelmi əhəmiyyət kəsb edir. Bu isə özlüyündə məntiq elminin və onun ayrı-ayrı sahələrinin inkişafına gətirib çıxarır.

Baxılan tədqiqatda müasir dövrdə formalaşmış, ayrı-ayrı sahələrə şaxələnmiş və eyni zamanda həmin sahələri özündə vahid sistem halında ehtiva edən məntiq elminin antik dövrdə yaranması, deduktiv metodun təşəkkülü və Aristotelin sillogistika nəzəriyyəsi araşdırılmışdır.

Məntiq qədim və zəngin tarixi olan elm sahəsidir. Aristotel məntiqi, həmçinin klassik məntiq də adlandırılan formal məntiq digər məntiq sahələrinin inkişafının birinci pilləsi kimi qiymətləndirilə bilər. Daha sonralar elmi biliklər və təcrübə artdıqca Aristotelin ardıcılları məntiq elmini daha da inkişaf etdirmiş, ona yeni qaydalar, təfəkkür formaları əlavə etməklə zənginləşdirmiş və yekunda müxtəlif məntiq sahələri yaranmışdır.

Görkəmli Alman filosofu Georg Vilhelm Fridrix Hegel (1770-1831) “Fəlsəfə tarixinə dair mühazirələr” əsərində fəlsəfənin tarixi inkişaf prosesinin öyrənilməsinin yalnız fəlsəfə elminin sistemli şəkildə təhlili nəticəsində mümkün olacağı anlamına gələn “Fəlsəfənin tarixinin öyrənilməsi fəlsəfənin özünün öyrənilməsi deməkdir” ifadəsini işlətmişdir. Bənzər ifadəni məntiq elmi üçün də işlətsək yerinə düşər. Məntiq elminin formalaşması və inkişaf mərhələlərinin öyrənilməsi yalnız xronologiyaya nəzər salmaqla deyil, eyni zamanda, onun inkişafına təkan verən amilləri, səbəbləri, elmi-nəzəri ideyaların tarixi təkamülü prosesini vahid sistem kimi araşdırmaqla mümkündür.

Məntiq – yunancadan tərcümədə həm söz, həm fikir mənasında işlənən “logosgan” sözündən götürülmüşdür. Bu da dialektika (fikirləşmək sənəti) və ritorikanı (mühakimə yürütmək sənəti) özündə birləşdirir.

Ən qədim zamanlarda fəlsəfə sistemli bir bilik sahəsi kimi mövcud olmasa da, insanların

müəyyən təcrübələri, inancları üzərində qurulan dünyagörüşlərini, düşüncələrini fəlsəfəyə aparan yollar kimi qiymətləndirmək olar.

Lakin bizim eradan əvvəl V-IV yüzilliklərdən başlayaraq Antik dövr filosofları dünyanı inanclar, əsatirlər və təcrübələr baxımından izah etmək əvəzinə sağlam düşüncə və məntiq baxımından izah etməyə çalışırdılar. Amma bu o demək deyildir ki, antik dövr filosofları cəmiyyətin bütün ideologiyalarını, dəyərlərini rədd edirdilər. Onlardan bəziləri filosoflar tərəfindən inkar edilsə də, bəziləri zamana uyğunlaşdırılaraq, elmi cəhətdən əsaslandırılaraq daha yeni dəyərlər qazanırdılar.

Antik dövr fəlsəfəsi fəlsəfi təfəkkürün təkamülünün ilkin mərhələsi hesab olunur. Bu dövr məntiqi biliklərin təşəkkül tapması, fəlsəfi ideyaların formalaşdırılması yönümündə araşdırılmalıdır.

Antik fəlsəfədə məntiqi baxışların meydana gəlməsi, məntiqin müstəqil bir elm kimi formalaşması Qədim Hindistanda, Çində başlanmış, sonralar isə Qədim Yunanıstanda və Romada geniş inkişaf etmişdir. Qədim Hindistanda məntiqin inkişafının əvvəlki mərhələlərində əsas diqqət əqli nəticəyə verilirdi. Tanınmış Hind məntiqçisi Hotama qeyd edirdi ki, sillogizm beş üzvdən (hökmdən) ibatərdir. Bunlar aşağıdakılar idi:

- Tezis;
- Əsas;
- Nümunə;
- Tətbiq;
- Yekun.

Ondan əvvəl Hindistanda sillogizm nəzəriyyəsinin doqquz üzvdən ibarət olduğu qəbul olunsa da, Hotamanın beş üzvlü sillogizm nəzəriyyəsi Hind məntiqində əsas yer tutur.

Məntiqin meydana gəlməsi məsələsini araşdırarkən bir neçə əsaslı səbəblər müəyyənləşdirilmişdir. Onlardan biri dəqiq elm sahələrinin (xüsusilə riyaziyyatın, fizikanın, astronomiyanın və s.) yaranması və inkişafı prosesi olmuşdur. Riyaziyyatın inkişafı prosesi bizim eradan əvvəl VI əsrdə Qədim Yunanıstanda çox sürətlə gedirdi. Mifologiya və dinə qarşı mübarizədə yaranan məntiq elmi ilk növbədə elmi-nəzəri təfəkkürə, əqli nəticəyə və sübuta əsaslanırdı.

Məntiq elminin meydana gəlməsində digər bir mühüm səbəb kimi natiqlik mədəniyyətinin inkişafını qeyd etmək olar. Qədim Yunanıstan həm də natiqlik sənətinin beşiyi hesab olunur. Görkəmli Roma alimi və natiqi Siseronun da qeyd etdiyi kimi, "Yunanıstan həqiqətən natiqlik istedadı ilə ehtirasla alışıb yanırdı və uzun müddət onunla şöhrətlənirdi". Məhz antik dövrdə demokratiyanın çiçəkləndiyi Yunanıstanda hüquqşünaslar üçün natiqlik qabiliyyəti nə qədər önəmli idisə, müxtəlif qarışıq proseslərin tədqiqatı, araşdırmaların dolğun nəticəyə gəlinməsi, dinləyicilərə hadisələrin ətraflı və inandırıcı çatdırılması məqsədilə məntiqi bilmək də bir o qədər önəmli idi. Bir iddianın doğru ya yanlış olduğuna inandırmaqda, dinləyicilərin narazı olduğu məsələlərdə gözəl natiqlik qabiliyyətinin aciz olduğu məqamlarda belə məntiqi mülahizələr, izahatlar, əsaslandırmalar çıxış yolu ola bilirdi.

Qədim yunan filosofu, alimi Aristotel (e.ə. 384 - e.ə. 322) məntiqin banisi hesab olunur. Hətta bəzi mənbələrdə Aristoteli "məntiqin atası" da adlandırırlar.

Lakin fəlsəfi problemlərin daha dolğun və sistemli təhlili digər bir qədim yunan alimi Demokritin (e.ə. 460 – e.ə. 370) "Məntiqilik və yaxud kanonlar" haqqında olan traktatında öz əksini tapmışdır. Demokrit induktiv məntiqin banilərindən biridir. O, traktatında idrakın mahiyyəti, onun əsas formaları və həqiqətin meyarını araşdırmaqla, idrakda məntiqi mühakimələrin mühüm rolunu göstərmişdir. Demokrit idrak prosesində induktiv metodun roluna önəm verərək, bir sıra deduktiv nəticələri ciddi tənqid etmişdir. Demokritin fikrincə təbiət təcrübi

yolla öyrənilməlidir. Bunu əsas gətirən Demokrit kafi əsas qanununu formulə edərək onu yalnız təfəkkürə deyil, bütün təbiətə aid etmişdir.

Qədim yunan idealist filosoflarından Sokrat (e.ə. – e.ə. ) və Platon (e.ə. – e.ə.) da məntiq problemləri ilə ciddi məşğul olmuşdur. Onlar öz məntiqi təlimlərində fəlsəfədə və məntiqdə materialist xəttin əleyhinə ciddi mübarizə aparırdılar.

Sokratın fəlsəfi baxışlarına görə də idrak prosesi induktiv xarakter daşıyırdı.

Platonun fəlsəfəsinin səciyyəvi cəhəti dialektikanın həqiqəti dərk etmə vasitəsi kimi şərh olunması ilə şərtlənir. Onun dialoqlarında məntiq məsələləri ideyalar haqqındakı metafizik və idealist təlim ilə əlaqədə nəzərdən keçirilir. Ümumilikdə, Platonun məntiq elminin təşəkkül tapmasında rolunu qiymətləndirərkən, onun fəlsəfi təlimində ayrı-ayrı məntiqi anlayışların, məntiqi metodların, xüsusilə analiz və sintez metodlarının şərhinin mühüm yer tutduğu müəyyən olunur.

Demokritin traktatları və digər antik dövr filosoflarının əsərləri bu günümüzə qədər gəlib çatmasa da, Aristotelin onlardan faydalanaraq nəhəng məntiq sistemi yaratdığı aşkardır. Aristotel 20 ilə yaxın Platonun şagirdi olmuş, daha sonra Afinaya gələrək orada özünün məktəbini (peripatetik məktəbi və ya Likey məktəbi adlanan elmi məktəbi) yaratmışdır. Aristotel müəllimindən öyrəndiklərini, özünə qədər əldə olunmuş elmi nailiyyətləri, təfəkkür haqqında olan dağınıq bilikləri öz əsərlərində ümumiləşdirərək məntiqi problemləri dərindən işləmiş və özündən sonra gələn nəsillər üçün böyük bir irs buraxmışdır.

Aristotel ilk dəfə təfəkkürün üç formasını (anlayış, hökm və əqli nəticə) və üç qanunu (eyniyyət, ziddiyyətsizlik və istisna qanunu) elmə daxil etmişdir.

Aristotelin anlayışlar təlimindən bəhs etdiyi “Kateqoriyalar”, hökm nəzəriyyəsinin təhlilini verdiyi “Şərhlər haqqında”, əqli nəticə və sübutlar nəzəriyyəsinin müfəssəl şəkildə işləndiyi “Birinci və ikinci analitika”, təfəkkürdə qəbul edilən əsas məntiqi kateqoriyaların və üsulların təsvir edildiyi “Topika” və səhv əqli nəticələrin, məntiqi səhvlərin aşkara çıxarılması üsulları, eləcə də sübut mənbələrinin izah olunduğu “Sofistik təkzibləri haqqındakı” əsərləri onun tədqiqatçıları tərəfindən toplanaraq “Orqanon” (biliyin silahı) adı altında birləşdirilmişdir. Dahi filosofun bunlardan başqa “Metafizika”, “Fizika”, “Ruh haqqında” adlı kitablarında və “Ritorika” traktatında da məntiqi təliminin ünsürlərinə rast gəlmək mümkündür. Aristotel “Metafizika” əsərində isə kəşf etdiyi əsas məntiqi qanunların şərhini vermişdir.

Aristotel antik fəlsəfədə ilk dəfə insanın fikrini xüsusi tədqiqat predmetinə çevirmişdir. Onun məntiqində həqiqət və yalan ciddi şəkildə fərqləndirilmişdir. O, məntiqi düzgün mühakimə yürütmək bacarığı, həqiqəti sübut etməyin vasitə və yolları haqqında elm adlandırırdı. Aristotelə görə, həqiqət fikrin gerçəkliyə uyğunluğudur, yalan isə gerçək predmet və hadisələrin fikirdə təhrifidir.

Aristotelin bütün məntiqi düşüncələrinin mərkəzində deduktiv əqli nəticə və sübut nəzəriyyəsi dururdu. Bu problemlər filosof tərəfindən elə dərindən işlənib hazırlanmışdır ki, üzərindən yüzilliklər keçməsinə baxmayaraq indiyə qədər öz əhəmiyyətini itirməmişdir. Aristotel özü bu elmi məntiq deyil, analitika adlandırırdı. “Məntiq” termini isə daha sonralar – təxminən bizim eradan əvvəl III əsrdə elmi leksikona daxil edilmişdir.

Aristotelin özündən əvvəlki təfəkkür praktikasını ümumiləşdirməklə yaratdığı məntiq elmi idrakın sonrakı inkişafında da əvəzsiz rol oynamışdır. Evklidin Aristotel məntiqinin təsiri ilə meydana gəlmiş “Başlanğıc” əsəri özündən əvvəlki üç yüz il ərzində inkişaf etmiş yunan riyaziyyatının bütün nailiyyətlərini özündə birləşdirmişdir. Bununla da ilk dəfə praktikada elmi nəzəriyyənin qurulmasının deduktiv metodu meydana gəlmişdir.

Aristotelin məntiq konsepsiyasının əsas məzmunu əqli nəticələrin qnoseoloji təyinatının

araşdırılması ilə bağlıdır. Onun sillogistik nəzəriyyəsi də məhz bu yönümdə təşəkkül tapmışdır.

Hər bir sillogizm iki hökm və bir nəticədən ibarət olur. Sillogizm mütləq şəkildə iki mühakimənin nəticəsidir.

Məsələn, aşağıdakı sillogizmdə:

Azərbaycan Respublikasında hər bir vətəndaşın təhsil almaq hüququ vardır
Ramil Azərbaycan Respublikasının vətəndaşıdır
Ramilin təhsil almaq hüququ vardır

"Azərbaycan Respublikasında hər bir vətəndaşın təhsil almaq hüququ vardır" və "Ramil Azərbaycan Respublikasının vətəndaşıdır" hökmlər, "Ramilin təhsil almaq hüququ vardır" nəticədir.

Sillogistikada belə bir aksioma vardır: Əyər hər hansı bir xüsusiyyət eyni sinifə məxsus olan bütün predmetlərə xasdırsa (xas deyildirsə), onda həmin xüsusiyyət həmin sinifdən olan hər bir predmetə xasdır (xas deyildir).

Sillogizmə daxil olan anlayışlar terminlər adlanır. Hər bir sillogizmdə üç termin olur. Nəticənin subyekti kiçik termin (baxılan nümunədə "Ramil"), nəticənin predikatı böyük termin (baxılan nümunədə "təhsil almaq hüququ vardır") adlanır. Böyük və kiçik terminlər kənar terminlər hesab edilirlər. Hər iki hökmə daxil olan, lakin nəticədə olmayan termin orta termin (baxılan nümunədə "Azərbaycan Respublikasının vətəndaşı") adlandırılır. Orta termin kənar terminlər arasında əlaqələndirici rol oynayır. Böyük terminin daxil olduğu hökm böyük hökm, kiçik terminin daxil olduğu hökm kiçik hökm adlandırılır.

Hər bir sillogizmdə yalnız üç termin olmalıdır. Bu, o deməkdir ki, mühakimənin nəticəsində kənar terminləri əlaqələndirən orta termin hər iki hökmdə eyni olmalıdır. Sillogizmin hökmlərində orta termin olaraq omonimlər istifadə olunarsa bu yanlış məntiqi nəticəyə gətirib çıxarır. Məsələn, "Ay kosmik cisimdir" və "Sentyabr aydır" hökmlərindən alınan "Sentyabr kosmik cisimdir" məntiqi nəticəsi yanlışdır.

Sillogizmdə orta termin hökmlərin heç olmasa birində ya mühakimənin subyekti və ya əks mühakimənin predikatı olmalı və açıqlanmalıdır. Hökmlərdə açıqlanmayan termin nəticədə də açıqlana bilməz

Sillogizmlərin hökmləri ilə əlaqəli də bir neçə qayda vardır:

- iki ümumi olmayan hökmdən heç bir nəticə çıxarmaq olmaz;
- iki inkar hökmündən heç bir nəticə çıxarmaq olmaz;
- iki təsdiq hökmündən inkar nəticəsi çıxarmaq olmaz;
- hökmlərin biri ümumi deyildirsə ümumi nəticə çıxarmaq olmaz;
- hökmlərdən biri inkardırsa təsdiq nəticəsi çıxarmaq olmaz.

Deyilənləri ümumiləşdirərək demək olar ki, sillogizm elə əqli nəticədir ki, burada nəticədə kənar terminlər arasında əlaqə onların hökmlərdə orta terminə olan münasibətləri əsasında yaranır.

**Məqalənin aktuallığı**. Qədim və zəngin tarixi olan məntiq elminin öyrənilməsində antik alimlərin yanaşmalarının araşdırılması baxımından məqalə aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə məntiq elminin yaranması səbəbləri, formalaşması və inkişaf mərhələlərinin öyrənilməsi, eləcə də əqli nəticənin təsnifatı ilə bağlı antik dövr mütəfəkkirlərinin maraqlı fikirlərinə istinad edilmiş, sillogizmlərin hökmləri ilə əlaqəli qaydaları göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Əlizadə A. Antik fəlsəfə tarixi. Bakı, 2016.
2. Hacıyev Z. Məntiq. Bakı, 2011.
3. Hegel G.V.F. Ruh fəlsəfəsi. Bakı, Təfəkkür Universiteti nəşriyyatı, 2003.
4. Hançerlioğlu O. Düşünce tarihi. İstanbul, 1970.
5. Hegel. Məntiq elmi. Bakı, 2005.
6. İsrafilov M.M. Məntiq (Nəzəriyyə və praktika). Bakı, 2005.
7. Məmmədov Ə., Paşayeva A. Elmi idrak və onun dünyası. Bakı, 1997.
8. Богаров Б.А., Чаркин Б.И. Основы логики. М., 1997.
9. Винделбанд В. История древней философии. Киев, 1995.
10. Коен М., Нагель Э. Введение в логику и научный метод. Пермь, 2010.
11. Кулизаде З. Четко-нечеткое постижение логики бытия. Баку, 2017.
12. Маковельский А.О. История логики. М., 1967.
13. Никифоров А.Л. Книга по логике. М., 1995.
14. Рассел Б. История западной философии. М., 1976.
15. Светлов В.А. Логика. Питер, 2006.


**П.Н. Юсифова**

## Философские основы становления логической науки в философии античности

### Резюме

Наука логики имеет долгую и богатую историю. Как и во всех исторических событиях, древние ученые проявляют большой интерес к изучению этой науки. В статье также упоминаются идеи мыслителей античного периода о причинах возникновения логической науки, изучении ее этапов становления и развития, а также классификации интеллектуального результата и правил, связанных с решениями силлогизмов.

**P.N. Yusifova**

## Philosophical foundations of the formation of logical science in the philosophy of antiquity

### Summary

Logic science has a long and rich history. As in all historical developments, ancient scholars have a keen interest in the study of this science. The article also refers to the ideas of antique period thinkers about the reasons for the emergence of logical science, the study of its formation and development stages, as well as the classification of the intellectual result and the rules related to the rulings of syllogisms.

**Redaksiyaya daxil olub:** 28.12.2019